# Vətənə gedirsən, Vətənə Cavid...

## Böyük şairin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirənlər indi də o günləri həyəcanla xatırlayırlar

**"O insan, o tarixi şəxsiyyət xoşbəxtdir ki, özündən sonra övladı olmasa da mənəvi varisləri qalır. Bu gün Hüseyn Cavidin də mənəvi varisləri var". Böyük şairin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirənlər - Həmid Cəfərov, hazırda Fövqəladə Hallar Nazirliyində məsləhətçi işləyən Telman Əliyev, Dövlət Gömrük Komitəsinin kadrlar şöbəsinin rəisi Zakir Nəsirov bu gün özlərini şairin mənəvi oğulları hesab edirlər.**

**"Kaspi"də qonaq olub 34 il bundan əvvəl baş verən hekayəti vərəqləyərkən onlar həm kövrəlir, həm də qürur hissi keçirirdilər.**



### ÇƏTİN MİSSİYA

**Telman Əliyev:** -1981-ci ildə Hüseyn Cavidin 100 illik yubileyi ilə əlaqədar Mərkəzi Komitənin qərarı vardı. Bu ərəfədə ulu öndər Heydər Əliyev Naxçıvana səfər etdi. Səfərdə olduğu müddətdə ziyalılarla görüşündə bir qocaman hərbçi Heydər Əliyevə "Yubileyin gözəl keçirilməsi üçün Hüseyn Cavidin məzarının yerinin müəyyən olunması və mümkünsə nəşinin vətənə gətirilməsi yaxşı olardı" - deyə təklif etdi. Heydər Əliyev bir az düşünəndən sonra: "Ola bilsin ki, heç nə qalmayıb, amma heç olmasa bir ovuc torpaq da olsa gətirilsin" dedi. Heydər Əliyevin razılığından sonra Hüseyn Cavidin məzarının tapılması və vətənə gətirilməsi istiqamətində işlər görülməyə başlandı. Bu iş Naxçıvan Partiya Komitəsinin ideoloji şöbə üzrə katibi Həmid Cəfərova, eyni zamanda, mənə həvalə edildi. Yazışmalar nəticəsində məlum oldu ki, Hüseyn Cavid əvvəlcə Maqadanda olub. Şairin ayağını orada şaxta vurduqdan sonra onu İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndindəki Əlillər evinə müalicəyə göndəriblər.

O vaxt bu işin dalınca getmək istəyənlər çox olsa da, zamanı çatanda müəyyən bəhanə ilə getməkdən imtina edirdilər. Nəticədə ortalıqda Cavidsevər və vətənpərvər insanlar qaldı. Biz Hüseyn Cavidin məzarının yerini müəyyən edib cənazəsini vətənə gətirmək vəzifəsini öhdəmizə götürdük. Mən onda Naxçıvanda daxili işlər nazirinin müavini vəzifəsində çalışırdım. Podpolkovnik idim. İrkutska yola düşəndə "Sənə polkovnik rütbəsi verilib" - deyə mənə telefon açıldı. Bu rütbə orada mənim çox köməyimə gəldi. Hələ Naxçıvanda bu işin ağırlığını hiss eləmirdik. Yalnız Moskvada başa düşdük ki, hara və nə üçün gedirik. Həyəcanımız böyük idi. Ancaq Tanrı və Hüseyn Cavidin ruhu bizə kömək olurdu. Həmçinin orada bizə yüksək səviyyədə kömək göstərirdilər. Bütün qapılar üzümüzə açıq idi. Heç şübhəsiz, bütün bunlar Heydər Əliyevin nüfuzuna görə idi.

**Zakir Nəsirov:** - Bu vəzifəni yerinə yetirmək üçün yola çıxanda açığı heç nə düşünmürdüm. "Nə üçün gedirəm?" və ya "Niyə gedirəm?" suallarını da özümə vermirdim. Yalnız İrkutska çatandan sonra bu işin nə qədər məsuliyyətli olduğunu anladım. Hüseyn Cavidin qəbrini tapmaq, cənazəsini vətənə çatdırmaq böyük missiya idi. Mənim onda 28 yaşım vardı - Tikinti Malları Kombinatının mərmər zavodunda çalışırdım. 1979-cu ildə SSRİ Ali Sovetinə deputat seçilmişdim.

### 22 GÜNLÜK SƏFƏR

**Telman Əliyev:** - Daxili qoşunların 200 əsgərini bizim himayəmizə verdilər. Çünki həmin əraziyə girmək mümkün deyildi. Əvvəllər orada qəbiristanlıq olub, həmçinin siyasi məhbuslar yerləşib. Daha sonra ərazidə meşə əmələ gəlib. İlk baxışdan orada qəbiristanlıq görünmürdü və yerini müəyyən etmək də çətin idi. 90 yaşlı, gözləri şikəst yerli bir sakin bələdçi kimi bizə kömək elədi. Məlum oldu ki, qoca vaxtilə həmin ərazidə mühafizəçi işləyib. 70 km-lik məsafəni 4 saata qət edəndən sonra o, bizə qəbiristanlığın ərazisini göstərdi. 40 dəqiqə axtarışdan sonra - əsgərlərlə, rayon prokurorunun iştirakı ilə addım-addım meşəliyi gəzib "59-cu qəbir"i tapanda sevincimizin həddi-hüdudu yox idi. Məzarda qəbir daşı yox idi. Şairin yubileyi şərəfinə 100 yaylım atəşi açıldı. Sonra məzarı qazmağa başladıq. Tabut çürümüşdü. Biz ayrıca bir tabut hazırlatmışdıq. Şairin nəşini çöldəki tabuta yerləşdirdik. "Hüseyn Cavid heç kimin çiynində məzara getməyib, indi onun üç oğlu gəlib, gəlin, onu çiynimizə alaq. Heç olmasa, 20-30 metr çiynimizdə aparaq" dedim. Şevçenko kəndindən bir dana alıb şairin şərəfinə ehsan verdik. Tayşet rayonunun prokuroru Yelena xanım hamımızın ağladığını görüb, özü də ağlamağa başladı. O, başdaşını tapmaqda bizə kömək etmişdi. İndiyə qədər orada belə bir hadisə olmamışdı. Biz rayonun birinci katibinin qəbulunda olanda məqsədimizi bildirərkən "Biz dünən ölən İvanımızı yaddan çıxarmışıq, siz azərbaycanlılar 41 ildən sonra şairinizi axtarmağa gəlmisiniz?" dedilər. Onlar təəccüb içində idilər.

**Zakir Nəsirov:** - Qəbri tapandan, məzarı açandan sonra keçirdiyimiz hissləri sözlə təsəvvür etmək çox çətindir. Təsəvvür edin, 40 il bundan əvvəlki qəbiristanlıq meşəliyə çevrilmişdi. Minlərlə qəbrin içindən Hüseyn Cavidin məzarını tapmaq o qədər də asan iş deyildi. Oralarda raq bir-birinin içinə qablaşmışdı. Biz onu baqaja verməmişdik. Ancaq hava limanında olarkən təyyarənin baqajında olan çoxlu yüklərin arasından tabutu tapmaq üçün bizə vaxt lazım idi. Təyyarə isə uçmaq üzrə idi. Mən pilotların kabinəsinə daxil olub "Cənab komandir, biz Heydər Əliyevin tapşırığını yerinə yetiririk, əgər siz bizsiz uçsanız partiya biletinizi itirəcəksiniz" - deyə ekipajın rəhbərinə deyincə, komandir: "Başa düşdüm, cənab polkovnik" deyə əmri icra edəcəyini bildirdi. Beş dəqiqə keçməmiş Həmid Cəfərov yük maşını ilə cənazəni gətirdi. Tabutu təyyarənin baqajına verəndən sonra Bakıya yola düşdük.

### "HÜSEYN CAVİD NAXÇIVANDA DƏFN OLUNSUN"

**- Bakıda - Hava Limanında qarşılanmağınız maraqlıdır... Sizi kimlər gözləyirdi? Turan xanım sizi necə qarşıladı?**

**Telman Əliyev:** Bakıda hava limanına yaşayan azərbaycanlıların bizim harayımıza çatması, kömək əllərini uzatması da heç vaxt yadımızdan çıxmaz. Yerdə yarım metrdən çox qar vardı. Səhər yuxudan duranda qaldığımız mehmanxananın qarşısının azərbaycanlılarla dolu olduğunu görüncə heyrətləndik. Onlar bizi tək qoymadılar.

**Telman Əliyev:** Səfərimiz 22 gün davam etdi. 13 oktyabrda yola düşdük. Şairin nəşini oktyabrın 24-ə - Hüseyn Cavidin doğum gününə Azərbaycana çatdırmağa çalışırdıq. Ancaq bunu edə bilmədik. Naxçıvandan çıxanda bizə Naxçıvan-Yerevan-Moskva-İrkutsk xətti ilə uçmaq tapşırılmışdı. Eyni qaydа ilə də geri qayıtmalı idik. Bunun üçün bir qədər az vaxt tələb olunurdu. Biz cənazəni tapıb geri qayıdan zaman təyyarədə "Siz Yerevana yox, Moskvaya uçmalısınız" dedilər. Hüseyn Cavidin məzarı - taxta tabut, sinklənmiş və taxta yeşiklərdən ibarət olaxınlaşanda təyyarənin pəncərəsindən baxıb böyük insan kütləsini gördük. Hava Limanı insanlarla dolu idi. Turan xanım da onların arasında idi. O, sanki şokda idi. Demək olar ki, danışmırdı. Biz bunu başa düşürdük... Gətirdiyimiz cənazəni Hüseyn Cavid üçün hazırlanan tabuta yerləşdirəndən sonra mitinq keçirildi. Biz tabutu addım-addım Şirvanşahlar Sarayına gətirdik. Cənazə 10 gün Sarayda qaldı. Çünki cənazə ilə bağlı bütün məlumatlar məxfi kanallarla yoxlanılır, həqiqəti üzə çıxarmağa çalışırdılar. Digər tərəfdən, Hüseyn Cavidin harada dəfn olunmaq məsələsi müzakirə olunurdu. Heydər Əliyevin ürəyindən şairin Naxçıvanda dəfn olunması keçirdi, ancaq demirdi. Biz 10 gün Mərkəzi Komitəyə gediş-gəliş elədik. Həsən Həsənovun sədrliyi ilə müzakirələr keçirilirdi. Biri "Fəxri xiyabanda", biri "Yaşadığı evin yaxınlığında dəfn olunsun" - deyə təklif edirdi. Rəhmətlik Lütfiyar İmanov "Yoldaşlardan bəziləri deyir ki, Hüseyn Cavidi Naxçıvanda dəfn etsək, gedib onu ziyarət edə bilmərik" - deyir. Bəs bu üç qəhrəman oğlan Sibirdən onun qəbrini necə gətiriblər? Bu, bəhanə deyil. Hüseyn Cavidi Naxçıvanda dəfn etmək olar" dedi. Sonra söz Turan xanıma verildi. Turan xanım "Mən burada oturanların hamısını Hüseyn Cavidin övladları hesab edirəm. Əgər oğul qərar qəbul edirsə, qız onun yanında danışa bilməz. Mən qardaşlarımın fikri ilə razıyam: Hüseyn Cavid Naxçıvanda dəfn olunsun. Bu qərarı Heydər Əliyevə bildirdilər. O da "Mən nə deyə bilərəm, əgər ziyalılar qərarı qəbul ediblərsə, Naxçıvanda da dəfn olunsun" dedi.

**- Təbii ki, Naxçıvanda da eyni izdihamla qarşılaşdınız...**

**Zakir Nəsirov:** - Naxçıvana cənazəni aparanda sözsüz ki, eyni izdihamla qarşılaşdıq. Aeroportdan Naxçıvana qədər yollara güllər düzülmüşdü. Biz həmin yolu piyada getdik. Cənazəni Dram Teatrda qoydular. Böyüklü-kiçikli bütün insanlar şairlə vidalaşmağa gəlirdi. Bu, çox böyük hadisə idi.

**Telman Əliyev:** - 15 ildən sonra Naxçıvanda Mavzoley açılanda Heydər Əliyev çıxışında: "Mən bu günü 15 il bundan əvvəl görürdüm. Bilirdim ki, Hüseyn Cavidin Nizaminin mavzoleyinə bərabər möhtəşəm bir mavzoleyi tikiləcək" - dedi.

İndi Hüseyn Cavidin mavzoleyi ziyarətgaha çevrilib. Naxçıvana yolu düşən qonaqlar, elm adamları, ziyalılar, tələbələr, şagirdlər - hamısı bu mavzoleyi ziyarət edir. İndi o mavzoleydə böyük şairlə bərabər ömür-gün yoldaşı Müşkünaz xanım, qızı Turan xanım və oğlu Ərtoğrul dəfn olunub. O, müqəddəs vəzifəni yerinə yetirəndən sonra Turan xanım bizi özünə qardaş bildi. "Siz mənim mənəvi qardaşlarımsınız" - deyirdi. Biz tez-tez onun evinə gedir, ad günlərində təbrik edirdik. Muzeyin direktoru işlədiyi vaxtlarda orada keçirilən tədbirlərdə yaxından iştirak edirdik. Biz onunla doğma bacı-qardaş olmuşduq. Biz bu gün özümüzü Hüseyn Cavidin övladları hiss edirik. Özümüz üçün bölgü də aparmışıq: mən şairin böyük, Həmid ortancıl, Zakir isə sonbeşik oğludur. Biz Müşkünaz xanımı da, Turan xanımı da çiynimizdə aparıb Naxçıvanda dəfn etmişik. Ərtoğrul da Naxçıvandakı qəbiristanlıqdan bizim iştirakımızla mavzoleyə köçürülüb.

### ÜÇ QARDAŞ

**- Siz böyük bir missiyanı yerinə yetirmişdiniz. Şairin ruhu doğma vətəninə qovuşandan sonra özünüzü necə hiss edirdiniz?**

**Telman Əliyev:** - Biz xoşbəxt idik. Mən bu gün də fəxr edirəm ki, bu işi məhz biz yerinə yetirmişik. Bizdən sonra nəvələrimiz, nəticələrimiz bizim adımızla tanınacaq. Bu, hər kəsə qismət olmur. Nə qədər Azərbaycan xalqı var, bizim adımız çəkiləcək. Nə qədər ki, nəfəsimiz gəlir Hüseyn Cavid adına keçirilən bütün tədbirlərdə məmnuniyyətlə iştirak edəcəyik.

**Zakir Nəsirov:** - Biz bu vəzifəni yerinə yetirməklə tarixə düşdük. Belə bir vəzifənin bizə tapşırılması qismət idi. İrkutskdan gələndə bizə xüsusi vaqon vermişdilər. Tayşetdə bilet almağa gələndə dəmir yolu idarəsinin rəisinin azərbaycanlı olduğunu öyrəndik. Onunla görüşüb gəlişimizin məqsədini bildirdik və bilet almağımız üçün kömək istədik. "Nə bilet, mən sizə xüsusi vaqon verəcəyəm" - dedi. Həmin vaqonu digər vaqonlara qoşdular. Orada üçümüz bir şeir yazdıq.

### "HƏMİDİN, TELMANIN, ZAKİRİN GƏLİB

Qəbrini Sibirdən aparır sənin" - deyə Telman müəllim bədahətən gələn bu sözləri mənə dedi. Yol boyunca hərəmiz bir misra qoşduq. Bakıya qayıdandan sonra daha bir bəndini də mən yazdım:

*Bəsdir, qəriblikdə yatdın, şairim,*  
*Səni aparmağa üç oğlun gəlib.*  
*Həmidin, Telmanın, Zakirin*  
*Elə bil ki, oğlun Ərtoğrul gəlib...*

"Qayıdış" adlı bu şeirə indi mahnı da yazılıb. Mahnının sözləri üç qardaşın, musiqisi isə Telman Əliyevindir.

**Telman Əliyev:** - Mən bəstəkar deyiləm, ancaq bu, mənim ürəyimin bəstəsidir. Bu, böyük şairə olan sevgimizdir, onun qarşısındakı borcumuzdur...

**Təranə Məhərrəmova**

## Telman Əliyevlə Zakir Nəsirov mükafatlandırılıb



**Hüseyn Cavidin cənazəsini vətənə gətirən qrupun üzvlərindən Fövqəladə Hallar Nazirliyində məsləhətçi işləyən Telman Əliyev, Dövlət Gömrük Komitəsinin kadrlar şöbəsinin rəisi Zakir Nəsirov "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva ilə görüşüblər.** "Siz vətən qarşısında, Hüseyn Cavidin ruhu qarşısında böyük iş görmüsünüz" deyə S.Vəliyeva qonaqlara "Kaspi" qəzetinin təsis etdiyi mükafatları təqdim edib. Özlərini şairin mənəvi varisləri hesab edənlər "Bundan sonra da böyük şairin adına keçirilən bütün tədbirlərdə yaxından iştirak edəcəyik"- deyə bildiriblər.

